# Multikultural və tolerant dəyərlər azərbaycançılığın əsasını təşkil edir

Fevralın 11-də “Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik” mövzusunda konfrans keçirilib.

DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycanda hökm sürən multikultural və tolerant mühitin əsasında azərbaycançılıq ideologiyasının dayandığını bildirib. O, ulu öndər Heydər Əliyev tərəfindən praktik olaraq dövlət siyasəti kimi tətbiq edilən azərbaycançılıq ideologiyasının əsasında tolerant və multikultural dəyərlərin də yer aldığını vurğulayıb. Ölkəmizdə müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində, heç bir ayrı-seçkiliyə məruz qalmadan yaşadıqlarını deyən komitə sədri xalqımızın bu ənənələrinin tarixi keçmişimizdən, mental dəyərlərimizdən qaynaqlandığını bildirib.

Mübariz Qurbanlı vurğulayıb ki, dini və milli mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər. Məhz etnik-mədəni müxtəlifliklər arasındakı münasibətlərin düzgün tənzimlənməsi işində respublikamızın spesifik sülhsevər siyasətinin nəticəsidir ki, bu gün heç kim, hətta bizə ikili standartlar prizmasından yanaşmağı ənənəyə çevirmiş ölkələr də Azərbaycanda multikultural mühitin mövcudluğunu nəinki inkar edə bilmir, hətta bu sosial münasibət və dövlət siyasətinin dünya üçün nümunə olduğunu təsdiqləyirlər.

Mübariz Qurbanlı deyib ki, Azərbaycanda milli, etnik, dini nifrət yox dərəcəsindədir. Bu, bizim nailiyyətimizdir ki, Azərbaycan xalqı digər millətlərlə, xalqlarla düşmənçilik hissi ilə yaşamır. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2016-cı ilin ölkəmizdə “Multikulturalizm ili” elan olunduğunu xatırladan M.Qurbanlı qeyd edib ki, bununla bütün dünyaya Azərbaycan xalqının dostluq, qardaşlıq şəraitində yaşamağa qadir olan bir xalq olduğunu bir daha nümayiş etdirəcəyik.

Daha sonra konfrans işini rayon gənclərinin iştirakı ilə panel formasında davam etdirib.

***AZƏRTAC***